*Yurdun Nağıl Bağı*

# OVÇU MAHMUD



*Yurdun Nağıl Bağı*

# OVÇU MAHMUD

"TUTU" Uşaq Mədəniyyət Mərkəzi

Bakı - 1998

Ovçu Mahmud deyilən bir gənc vardı, qərib yerlərdə dolaşmağı sevərdi. Bu Ovçu Mahmud günlərin birində bir meşəni xoşladı və orda özünə koma qurub yaşamağa başladı: ova çıxar, göydə uçub, yerdə qaçandan ovlar, gününü keçirərdi.

Bir dəfə ova çıxarkən Ovçu Mahmuda tülkü rast oldu. "Öldürüb dərisini soyar, qışda ayaqaltı kimi işlədərəm!" - deyə Ovçu Mahmud fikirləşdi.

Tülkü onun niyyətini duyub, yalvardı:

- Öldürmə məni, Ovçu Mahmud. Gün gələr, gərəyin olaram!

Ovçu Mahmud tülküyə dəymədi, evinə gətirib ovladığı iki quşdan birini ona verdi və birini də özü yedi.



Ertəsi gün tülkü meşəyə çıxınca, canavara rast oldu.

- Gəlsənə səni yeyim, - deyə canavar sözə başladı.

Tülkü ona belə cavab verdi:

- Tutalım, yedin məni, sonra nə olacaq? Yenə acmayacaqsan? Yaxşısı budur, gedək Ovçu Mahmudun evinə. Orda hər gün ov əti yeyəcəksən!

Canavar razılaşıb, tülküylə birlikdə Ovçu Mahmudun evinə gəldi. Ovçu Mahmudsa o gün 3 xallı maral ovladı və evə qayıdanda gördü ki, bir qonağı da artıb.



Həmin gündən sonra tülkü bir dəfə ayıya rast olub evə gətirdi, bir dəfə bəbirə, bir dəfə də Simurq quşuna. Ovçu Mahmud da bir dəfə 4 maral, bir dəfə 5 ceyran, bir dəfə də 2 maral, 4 ceyran ovladı və hər dəfə "Yenə qonağım artıb!" - deyə evə qayıdarkən, doğrudan da qonaqlarının çoxaldığını gördü.

Simurq quşu gələn günün ertəsi, Ovçu Mahmud ova yollanandan sonra, tülkü dedi:

- Belə olmaz axı, Ovçu Mahmud ov gətirir, biz də bir ucdan yeyirik. Gərək ona kömək edək!

- Əlbəttə! - deyə heyvanlar çığırışdı, - amma necə kömək edə bilərik?

- Mən bilirəm necə, - deyə tülkü cavab verdi, - gəlin onu evləndirək!



Danışıb bu qərara gəldilər ki, Çinmaçin padşahının qızını gətirib Ovçu Mahmuda versinlər. Bəbiri evə gözətçi qoyub, qalanları yola düşdülər: Simurq quşu tülkünü caynağına alıb uçur, canavarla ayı yerlə qaçırdı. Gəlib bir cütçüyə rast oldular. Fağır cütçü vəhşi heyvanları görən kimi, qorxub aradan çıxdı. Cütçünün öküzləri də hürküb boyunduruqdan çıxdı və hərəsi bir tərəfə götürüldü.

- Gəlin öküzlərin yerinə sizi bağlayım, - deyə tülkü canavarla ayını boyunduruqladı,- indi yeri şumlarıq, adamlar mat qalıb bir-birinə danışar. Padşah qızı da eşidib baxmağa gələndə Simurq quşu onu götürər. Sonra bir yerdə evə gedərik!



Tülkü deyən kimi də etdilər və padşah qızını götürüb Ovçu Mahmudun evinə döndülər.

O günü Ovçu Mahmud 7 ceyran ovladı. "Bir qonağım da artıb!" - deyə düşündü. Evə qayıdan kimi elə qapının ağzındaca, hərənin payını özünə verdi. Ancaq iki pay da əlində qaldığından soruşdu:

- Biri mənim payım, bəs biri kimin?

Evə girəndə gördü ki, içəridə Ay parçası qədər gözəl bir qız var. Görən kimi də vuruldu Gülzara - padşah qızının adı Gülzar idi - qız da Ovçu Mahmuda.

Bunlar burda evlənməkdə olsun, görək Çinmaçin padşahı neylədi.



Qızı itən gündən Çinmaçində bir falçı, bir rəmmal, bir münəccim qalmadı ki, dəridən-qabıqdan çıxmasın, amma heç biri Gülzarın yerini nişan verə bilmədi. Axır, cın-cındırından cin hürkən falçı arvadı çağırdılar. Bu arvad fal açar-açmaz, tezcə dedi:

- Qızın uzaq bir meşədə, Ovçu Mahmudun yanındadı! Taleyindən də çox razıdı!..

Padşah savaş təbilini çaldırdı və qoşun götürüb, qızını qaytarmaq üçün Ovçu Mahmudla müharibəyə yollandı.

Ovçu Mahmudla heyvanlar bir də gördülər ki, qabaqdan bir qoşun gəlir, sayı-hesabı yox. Düşünüb çarə aramağa başladılar.

- Mən bildim neyləmək lazımdı, - deyə tülkü dilləndi, - padşahın qoşununu qovmaqdan ötrü meşənin nə ki tülküsü, canavarı, ayısı,bəbiri və quşu var, hamısını bura çağırmalıyıq!



Belə də etdilər. Qoşun gözünü açınca, meşənin vəhşi heyvanları onun üzərinə cumdu: quşlar dimdiklədi, ayı vurub-yıxdı, tülkü dişlədi, canavarla bəbir parçaladı!..

Bunu görən padşah öz-özünə düşündü: "Bu sayda qoşunu hədər yerə qurban verməyə dəyməz. Qızım Ovçu Mahmudla xoşbəxt yaşamasaydı, yəqin özü gələrdi!.." Sonra padşah əmr verdi, döyüşü saxlatdı və barışıq elan etdi.

Ovçu Mahmudla Gulzar, meşə heyvanlarıyla insanlar bu barışığa çox sevindilər və böyük bir süfrə açaraq, yeyib-içib şənləndilər. Onlar şənlənməkdə olsun, biz də bu nağılı bitirməkdə.



"TUTU" Uşaq Mədəniyyət Mərkəzi

*Uşaqlar bütün nağılları*
*ilk dəfə Ana Dilində eşidir.*
*Bütün uşaqlarla dost olmaq*
*istəyirsənsə, onların dinlədiyi nağılı*
*sən də dinlə, sən də anla.*
*Ətirli gül-çiçək kimi, hər dilin də*
*öz rəngi, öz qoxusu var.*
*Yurdunun bütün rənglərini*
*görsən, Dünyanın ətrini alacaq,*
*canlı olan hər şeyi*
*sevib-qoruyacaqsan...*

